# Heydər Əliyevin Azərbaycan ədəbiyyatının yaşanmasında rolu



Azərbaycan xalqı xoşbəxt xalqdırdir ki, onun Heydər Əliyev kimi müdrik siyasi xadimi olmuşdur. Məhz bu dahi insanın səyi nəticəsində Azərbaycan dönməz müstəqilliyinə, inkişafına, öz tərəqqisinə qədəm qoymuşdur. O, öz ömrünü doğma xalqına sərf edən, milli dövlətçiliyin əsasını qoymuş dahi lider olmuşdur . Azərbaycanda ədəbiyyatın və mədəni fikrin inkişafında Heydər Əliyev cənablarının rolu böyükdür.Bu uzaqgörən liderin müdrik siyasəti ədəbiyyatımızın,eyni zamanda ədəbiyyatşünaslığımızın milli ideyalar istiqamətində inkişafına zəmin yaratmışdır. Xalqın milli məfkurə shibi olan böyük söz ustadlarının repressiya məruz qalması,mədəniyyətimizə zərbəvurmuş və xalqın milli soykökünü, qədim, zəngin tarixi keçmişini əks etdirən ədəbiyyat nümunələrinin, görkəmli şəxsiyyətlərimizin məqsədyönlü şəkildə məhkuma yönəlmişdi. XX əsrin 70-ci illərində Heydər Əliyev bu məsələyə xüsusi diqqətlə yanaşaraq, xalqın milli sərvətlərinin özünə qaytarılmasındaböyük səygöstərdi. Bununla xalqın milli keçmişini, mənəviyyatını özündə yaşadanədəbiyyat nümunələri, xalqın milli sərvəti olaraq qorundu və böyük qayğı ilə əhatə olundu.XX əsr Azərbaycan tarixinin ən parlaq səhifələri Heydər Əliyevin adı ilə bağlıdır.Heydər Əliyev Azərbaycan xalqının həyatına yenilik gətirən və modern Azərbaycan dövlətçiliyin özülünü açanfenomen şəxsiyyətdir. Azərbaycan xalqının mədəni inkişafına, yazıçılara,şairlərə göstərdiyi dərin diqqət və qayğını daim xalq olaraq görmüşük-.O, ədəbiyyata olan böyük sevgisinibu cür şərh edirdi: "Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir.Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir.Şəxsən mən həmişə belə hesab etmişəm,bu gün də belə hesab edirəm,daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın,bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür".

Heydər Əliyev Azərbaycan yazıçılarının 1981-ci il 12 iyun tarixli VII qurultayında çıxış edərkən demişdi: "Açıq demək lazımdır:Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir... Nizaminin və Füzulinin, Xaqaninin və Nəsiminin, Axundovun və Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun və Məmməd Səid Ordubadinin vətəni öz müasir yazıçılarından və şairlərindən parlaq tarixi əsərlər gözləyir..."

O, Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının bir sözlə zəngin mədəni-mənəvi sərvətlərimizin inkişafında böyük xidmətləri olan elm adamlarına, xalq milli ruhunu formalaşdıran sənətkarlarımıza, mənəviyyat xəzinəmizə çox həssas yanaşmışdır.Azərbaycan ədəbiyyatının tarixində unudulmaz şairlərin dünya şöhrətli kamil əsərlərinin, qiymətli sənətinin qorunub saxlanılmasındaUlu Öndərimizin misilsiz xidmətləri vardır.

Heydər Əliyev ədəbiyyatıngənc nəslin həyatında böyükrolunu belə səciyyələndirmişdi : "Birincisi, şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam... Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam..." (Heydər Əliyev, Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan", 1999, s. 413-414).

Həmişəyaşar liderimiz Heydər Əliyev siyasətindəmilli-mənəvi dəyərlərə hörmət də önəmli yer tutur. Çünki onun fikrincə: "...insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanlığın mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərin formalaşmasına bu qədər güclü təsir edən güclü vasitə yoxdur". Heydər Əliyevxalqın milli sərvəti olan"Kitabi-Dədə Qoprqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verdiyi sərəncamı, yubiley mərasimindəki çıxışı, xalqımızın milli-mənəvi sərvətinə, onun tarixi, mədəniyyətinə və ədəbiyyatına verdiyi dəyərli qiyməti idi.Özünün də dediyi kimi: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapıb... ...Bu, bizim ana kitabımızdır... ...Eposun əsas ideyasını qəhrəmanlıq ideologiyası təşkil edir. ..."Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir".

Ədəbiyyatımızın böyük simalarından olan Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov,Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə,Mirzə Ələkbər Sabir,Üzeyir Hacıbəyov,Hüseyn Cavid, Səməd Vurğun.... kimi söz-sənət ustalarını müasir Azərbaycan xalqına çatdırılmasında da, Heydər Əliyev cənablarının misilsiz xidmətləriolmuşdur. Onun ədəbiyyata, mədəniyyətə, ümumən Azərbaycan bədii fikir tarixinə bu qədər bağlı olması və yaradıcı insanları yüksək qiymətləndirməsi Ulu Öndərin öz xalqına,onun mədəni dünyasınabağlılığının nümunəsidir.

Hazırda daümummilli liderin bu mütərəqqi fəaliyyətinin uğurlu davamını görürük. Onun siyasi varisi, ideallarını reallaşdıran müzəffər Ali baş komandan İlham Əliyev cənabları da ədəbiyyatımıza öz qayğısını əsirgəmir. Deməli, Ulu Öndərin arzuları reallığa çevrilib.

*Təranə CAVADOVA,*
*AMEA M.Füzuli adına*
*Əlyazmalar İnstitutu*